*V.Quliyev. Cəlil Məmmədquluzadənin anadan olmasının 100 illik yubileyinin Qarabağda keçirilməsi // Əlyazmalar yanmır, 2019, № 2(9), s.86-90.*

UOT: 82.0

**Vasif Quliyev**
*AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan*
*Ədəbiyyatı Muzeyinin dissertantı,*
*Bakı, Mətbuat pr., 529-cu məhəllə*
*e-mail: vasif5000@mail.ru*

# CƏLİL MƏMMƏDQULUZADƏNİN ANADAN OLMASININ 100 İLLİK YUBİLEYİNİN QARABAĞDA KEÇİRİLMƏSİ

*Ədəbiyyatımız tarixində xüsusi yeri olan Cəlil Məmmədquluzadənin zəngin ədəbi irsi bütün dövrlərdə aktual olduğu üçün o həmişə gündəmdə olmuş, adı qədirbilən xalq tərəfindən daima ehtiramla yad edilmişdir. Bu səbəbdən də ədibin anadan olmasının yüzillik yubileyi 1967-ci ildə təkcə Respublikamızda deyil, ümumilikdə SSRİ-nin bütün müttəfiq respublikalarında yüksək səviyyədə qeyd edilmişdir. Böyük ictimai məna kəsb edən bu yubiley öz əhəmiyyətinə görə ədəbi bir hadisə çərçivəsindən çıxaraq millətlərin mədəniyyət və dostluq bayramına çevrilmişdir.*

***Açar sözlər:*** *Yubiley, Şuşa, "Molla Nəsrəddin", "Ölülər", Ağdam.*

**Giriş**

*Məqalədə ədibin yubileyinə hazırlıq işlərinin hələ 1965-ci ildə görüldüyü, xüsusilə də yazıçının həyatının əksər hissəsinin bağlı olduğu Şuşa, Ağdam və Ağcabədidə rəngarəng, bir-birindən maraqlı silsilə tədbirlərin və Şuşada bu münasibətlə səyyar elmi sessiyanın keçirilməsi, eləcə də burada Nazim Axundov, Kamran Məmmədov, Həmid Araslı, Orucəli Həsənov, İsmayıl Axundov, Abbas Zamanov kimi görkəmli alimlərin iştirakı xüsusi qeyd olunur. Məqalədə həmçinin göstərir ki, C.Məmmədquluzadə Qarabağı özünün ikinci vətəni hesab edirdi. Qarabağ camaatı bunu yüksək qiymətləndirərək böyük sənətkara öz layiqli töhfəsini verdi.*

1967-ci ildə Cəlil Məmmədquluzadənin anadan olmasının 100 illik yubileyi təkcə Azərbaycanda yox, həm də SSRİ-nin bütün müttəfiq respublikalarında təntənəli surətdə qeyd edilmişdir. Bu yubiley tədbiri öz əhəmiyyətinə görə ədəbi bir hadisə çərçivəsindən kənara çıxmış, böyük ictimai məna kəsb edərək mədəniyyət və dostluq bayramına çevrilmişdi. Yubiley komitəsi geniş hazırlıq işlərinə hələ 1965-ci ilin əvvəllərindən başlamış, yubileyqabağı mühüm tədbirlər hazırlamışdı. Respublikamızın bütün rayonlarında, o cümlədən də, yazıçının həyatının böyük bir hissəsinin bağlı olduğu Şuşada, Ağdamda və Ağcabədidə də bir sıra rəngarəng tədbirlər keçirilmişdi. Bu rayonların teatrlarının, mədəniyyət evlərinin, tədris müəssisələrinin səhnələrində ədibin pyesləri tamaşaya qoyulur, əsərlərindən ibarət səhnəciklər hazırlanır, həyat və fəaliyyətini, yaradıcılığını işıqlandıran müxtəlif sərgilər düzəldilir, sessiyalar və maraqlı ədəbi-bədii gecələr təşkil edilirdi.

1966-cı ilin mart ayından M.Əzizbəyov adına Şuşa Pedaqoji Məktəbində yubileyə hazırlıq münasibətilə bir sıra tədbirlər həyata keçirilmişdi. Məktəbin kitabxanasında yubilyarın həyat və yaradıcılığını əks etdirən sərgi düzəldilmiş, ayrı-ayrı kurslarda "Poçt qutusu", "Qurbanəli bəy", "Zırrama" hekayələri, "Ölülər" komediyası və sair oxunub, müzakirə

olunmuşdu. Üçüncü kurs tələbəsi Tahir Məmmədov adlarını qeyd etdiyimiz əsərlərdəki bəzi obrazların surətlərini nümayiş etdirən maraqlı rəsmlər çəkmişdi. Ədəbiyyat dərnəyində də az iş görülməmişdi. Dərnəyin fəal üzvlərindən H.Mirzəyev "Ədibin həyat və yaradıcılığı", Y.Abışov "Cəlil Məmmədquluzadə hekayəçi kimi" və başqa mövzularda məruzə etmişlər. Həmçinin "Ölülər" pyesi tamaşaya hazırlanmışdır. Rəşid Bayramov İsgəndər, Şıxəli Şıxəliyev Şeyx Nəsrullah, Nizami Məmmədov Cəlal, İsmayıl Teymurov Hacı Həsən rollarında oynamışlar. Dərnək həm də böyük ədibə həsr edilmiş xüsusi bülleten buraxmışdı (1). Bundan əlavə, məktəbin müəllimi Əzizə İsmayılova tələbələrin ümumi yığıncağında Cəlil Məmmədquluzadənin yubileyi ərəfəsində məktəblilərin öhdəsinə düşən vəzifələr barəsində qısa və məzmunlu şəkildə dinləyicilərə məlumat vermiş, dil və ədəbiyyat müəllimi Zəhra Məmmədova "Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı, son kurs tələbəsi Ş.Nağıyeva "Ölülər" əsərindəki İsgəndər surəti haqqında maraqlı və aydın bir şəkildə məruzə etmişlər. Məruzələr ətrafında çıxış edənlər öz fikirlərini söyləmişlər (2).

Məktəbdə müntəzəm olaraq ədəbi-bədii gecələr keçirilmiş, fotoalbomlar düzəldilmiş, fənn dərnəklərində yubilyarın əsərlərinin müzakirələri keçirilmişdir. Ədəbiyyat müəllimlərindən Əzizə İsmayılova, Rəfiqə Yusifova və Zəhra Məmmədova yazıçının həyat və fəaliyyəti haqqında məruzələr etmiş və söhbətlər aparmış, hekayələrindən və felyetonlarından şagirdlərə parçalar oxumuşlar (3).

M.H.Vəzirov adına Şuşa Kənd Təsərrüfatı Texnikumunun bədii özfəaliyyət kollektivi də yubileyə əliboş gəlməmişdi. Rayon teatrının rejissoru Əli Əjdərov ədibin "Poçt qutusu" hekayəsini səhnələşdirmiş və böyük uğurla tamaşaya qoymuşdu (4). Şuşa şəhər Ü.Hacıbəyov adına 1 nömrəli orta məktəbi ədəbi-bədii gecə, (5). 1 nömrəli internat məktəbi oxucular konfransı, kitab müzakirələri, disputlar keçirməklə, divar qəzetləri və ədəbi bülletenlər (6) buraxmaqla, 2 nömrəli internat məktəbi foto-sərgilər təşkil etməklə, ədəbi bülletenlər buraxmaqla, ədəbi-bədii gecələr keçirməklə, "Poçt qutusu" hekayəsini və "Ölülər" komediyasını (7) səhnələşdirməklə, fəhlə-gənclər orta məktəbinin direktoru Allahverdi Nağıyev özünün maraqlı mühazirələri ilə (8) yubileyə öz töhfələrini vermişlər.

Şuşanın müxtəlif idarə və müəssisələrində də yubileylə bağlı silsilə tədbirlər keçirilmişdi. Şəhər mədəniyyət universitetinin növbəti məşğələsində dil və ədəbiyyat müəllimi Sara Ələkbərovanın "Cəlil Məmmədquluzadənin yaradıcılığında qadın azadlığı" adlı məruzəsi dinlənilmiş, mədəniyyət evinin bədii özfəaliyyət kollektivi ədibin "Ölülər" komediyasından və "Poçt qutusu" hekayəsindən səhnəciklər göstərmişdi (9).

Yubiley münasibətilə Şuşada səyyar elmi sessiya da keçirilmişdi. Burda müəllimlər, mədəniyyət ocaqlarının işçiləri və pedaqoji məktəbin son kurs tələbələri iştirak etmişlər. Sessiyada filologiya elmləri doktoru, professor Nazim Axundov "Cəlil Məmmədquluzadə xaricdə", filologiya elmləri doktoru Kamran Məmmədov "Cəlil Məmmədquluzadənin felyetonları" mövzularında məzmunlu, aydın və maraqlı bir tərzdə məruzə etmişlər (10). Sonra şəhər mədəniyyət evində Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi, Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əməkdaşları tərəfindən elmi sessiya keçirilmişdir. Sessiyanı akademiyanın müxbir üzvü, professor Həmid Araslı giriş sözü ilə açmış, tənqidçi Orucəli Həsənov "Cəlil Məmmədquluzadənin tənqidi görüşləri", xalq rəssamı İsmayıl Axundov "Molla Nəsrəddin" jurnalının rəsmləri, Nizami adına Ədəbiyyat və Dil İnstitutunun elmi əməkdaşı Abbas Zamanov "Azərbaycan ədəbiyyatı tarixində Cəlil Məmmədquluzadənin yeri" mövzularında maraqlı mühazirələr oxumuşlar. Sessiyada həmçinin M.Əzizbəyov adına Şuşa Pedaqoji Məktəbinin müəllimi Mustafa Fətəliyev "Cəlil Məmmədquluzadənin əsərlərinin tərbiyəvi əhəmiyyəti" haqqında çıxış etmişdi (11).

Şuşa istirahət evində keçirilən ədəbi-bədii gecədə rayon metodkabinetinin müdiri Mustafa Fətəliyev ədibin həyat və yaradıcılığı haqqında məruzə etmiş, sonra istirahətçilər "Poçt qutusu" əsərinin tamaşasına həvəslə baxmışlar (12).

Yubileylə əlaqədar Cəlil Məmmədquluzadənin aylarla qoynunda yaşadığı, gözəl və unudulmaz xatirələrlə bağlı Kəhrizli kəndində təntənəli yığıncaq keçirilmişdi. Tədbirdə Ağcabədi rayonunun bir çox məktəblərinin müəllim və şagird kollektivi iştirak edirdi. Xalq yazıçısı Süleyman Rəhimov, filologiya elmləri namizədi Nəcəf Quliyev, ədibin həmyerliləri də yığıncağa dəvət olunmuşdular. Kəhrizlinin qocaman sakini Murtuza Ağalarov, Həmidə xanım Cavanşirin qohumu Zülfüqar İsgəndərov, yazıçını yaxından tanıyan Habil Hacıyev öz xatirələrini danışmışlar. Boyat kənd orta məktəbinin şagirdi Elmira Hüseynova Bəxtiyar Vahabzadənin böyük ədibə həsr elədiyi şeri zövqlə söyləmiş, şagird Solmaz Əsgərova isə yazıçının "Saqqallı uşaq" hekayəsini bədii qiraətlə oxumuşdu. Yığıncağın sonunda Süleyman Rəhimov Mirzə Cəlil haqqında xatirələrini və ədibin 100 illiyinə həsr etdiyi "Uğundu" romanının yazılış tərzindən danışmışdı (13).

Cəlil Məmmədquluzadənin 100 illik yubileyi münasibətilə rayonun Boyat kənd orta məktəbinin pioner otağında ədibin həyat və yaradıcılığını əks etdirən fotomontaj və sərgi düzəldilmiş, ədəbiyyat dərnəyində onun haqqında söhbətlər aparılmış, məruzələr oxunmuş, bir neçə dəfə ədəbi-bədii gecə keçirilmişdir (14).

Böyük yazıçının 100 illik yubileyi yaxınlaşdıqca Ağdam rayonunun orta məktəblərində və mədəni-maarif müəssisələrində də bir-birindən maraqlı, rəngarəng tədbirlər keçirilmişdir. Şəhər 2 nömrəli beynəlmiləl orta məktəbinin kollektivi öz kitabxanasında ədibin əsərlərindən ibarət geniş sərgi təşkil etmiş, fotomontaj düzəltmişdi. Sərgidə "Danabaş kəndinin əhvalatları", "Poçt qutusu", "Bəlkə də, qaytardılar", "Quzu", "Saqqallı uşaq" hekayələri, yazıçının "Azərnəşr" tərəfindən buraxılmış "Felyetonlar, məqalə və məktublar"ı və başqa kitabları fotomontajda isə Mirzə Ələkbər Sabirlə birlikdə olan şəkli, "Molla Nəsrəddin" jurnalının bir neçə nüsxəsi, karikaturalar və əsərlərinə çəkilmiş şəkillər nümayiş etdirilmişdir (15).

Ağdam şəhər 5 nömrəli orta məktəbin ədəbiyyat dərnəyində də vaxtaşırı ədibin yubileyinə həsr edilmiş mühazirələr oxunur, məruzələr edilirdi. Növbəti yığıncaqların birində şagirdlərdən Raidə Quliyeva "Cəlil Məmmədquluzadənin XX əsr Azərbaycan ictimai və mədəni həyatında müstəsna yeri", Səadət Məmmədova "Cəlil Məmmədquluzadə jurnalist və ictimai xadim kimi", Yavər Əliyev "Ölülər" əsəri, Akif Mehralıyev "Şeyx Nəsrullah fırıldaqçı ruhanilərin tipik nümayəndəsidir", Fərman Süleymanov "Molla Nəsrəddin" jurnalının tarixi əhəmiyyəti" mövzularında məruzə etmişlər. Burda fotomontajlar və sərgilər düzəldilmiş, yazıçının əsərləri və onun haqqında yazılmış məqalə və məktublar nümayiş etdirilmişdir (16).

Ağdam 6 nömrəli məktəbi isə ədibin 100 illik yubileyinə maraqlı bir səhərciklə gəlmişdi. Məktəbin radio qovşağında müəllim Şükufə Axundova "Poçt qutusu" əsərini xoş ahənglə, gözəl qiraətlə oxumuşdur. Onun ardınca şagirdlərdən Ofelya Qasımova və Elxan Quliyev "Danabaş kəndinin əhvalatları" povestindən parçalar oxumuşlar. Səhərcik başa çatandan sonra müəllimlər və şagirdlər məktəb kitabxanasında düzəldilmiş fotomontaja baxmışlar. Fotomontajda qüdrətli felyetonçunun yaratdığı molla, məşədi, kərbəlayı, axund tiplərinin şəkilləri və bir çox karikaturalar yerləşdirilmiş, yazıçının müasirlərinin və yaxın qələm dostlarının portretləri verilmişdi. Başqa bir tərəfdə kitab sərgisi təşkil edilmişdi. Sərgidə ədibin "Quzu", "Ölülər", "Bəlkə də, qaytardılar" əsərləri, yubiley ərəfəsində buraxılmış "Felyetonlar, məqalələr, xatirələr və məktublar"ı və başqa illərdə nəşr edilmiş bir sıra kitabları nümayiş olunmuşdu. Bundan əlavə, yubiley münasibətilə xüsusi bülleten də buraxılmış, məruzələr oxunmuş, söhbətlər dinlənilmiş, "Quzu" hekayəsi səhnələşdirilmişdir (17).

Ağdam şəhərinin bir sıra idarə və müəssisələrində də yubiley tədbirləri keçirilmişdi. Maarif işçiləri evində rayonun dil-ədəbiyyat müəllimlərinin iştirakı ilə keçirilən elmi-praktiki konfransda 3 nömrəli orta məktəbin müəllimi Süsən Abdullayeva "Cəlil Məmmədquluzadə ilk inqilabçı-demokratik, ədəbi-satirik "Molla Nəsrəddin" jurnalının banisidir", 1 nömrəli orta məktəbin müəllimi Qənirə Məmmədova "Ölülər" komediyası əsasında şagirdlərdə din əleyhinə tərbiyəni necə aşılayıram?", Göytəpə kənd məktəbinin müəllimi Nurəddin Əliyev "Cəlil Məmmədquluzadənin əsərlərində dinin və mövhumatın ifşası" mövzularında mühazirələr

oxumuşlar. Həmçinin burda yazıçının həyat və fəaliyyətini işıqlandıran fotomontaj da düzəldilmişdir (18).

Ağdam Kənd Təsərrüfatını Mexanikləşdirmə və Elektrikləşdirmə Texnikumunda da yubiley mədbirləri keçirilmişdi. Texnikumun kitabxanasında yazıçının həyat və yaradıcılığına həsr edilmiş geniş fotosərgi təşkil olunmuş və burda Cəlil Məmmədquluzadə və onun müasirlərinin şəkilləri, "Sizi deyib gəlmişəm" adlı stend və "Molla Nəsrəddin" jurnalından götürülmüş karikaturalar nümayiş etdirilmişdir. Müəllimlər yazıçı haqqında maraqlı söhbətlər aparmış, məruzələr oxumuşlar (19).

Ü.Hacıbəyov adına Ağdam Orta İxtisas Musiqi Məktəbinin kollektivi də Cəlil Məmmədquluzadənin yubileyinə aid bir sıra yaddaqalan tədbirlər hazırlamışdı (20).

Rayonun Xındırıstan (21), Mahrızlı (22), Qərvənd (23), Əlimədədli (24), Çəmənli (25), Şıxbabalı (26), Novruzlu (27), Qızıllı (28) kənd məktəblərində də böyük yazıçının 100 illik yubileyi təntənəli şəkildə keçirilmişdir.

**Nəticə**

*Cəlil Məmmədquluzadənin 100 illiyi onun özünə ikinci vətən saydığı Qarabağda da yüksək səviyyədə keçirilmiş və qarabağlılar da öz növbələrində bu yubiley bayramına öz töhfələrini vermişlər. Yubiley şənlikləri 1967-ci ilin iyun ayında Bakıda M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında təntənə ilə başa çatmışdır.*

**Ədəbiyyat siyahısı:**

1. Əzizə İsmayılova. "Yubileyə hazırlaşırıq", "Şuşa" qəzeti, 12 mart 1966-cı il, №9.
2. S.Əhmədov. "Yaxşı təsir bağışladı", "Şuşa" qəzeti, 24 noyabr 1966-cı il, №64.
3. "Hazırlıq işləri gedir", "Şuşa" qəzeti, 5 yanvar 1967-ci il, №2.
4. Saday Qəhrəmanov. "Poçt qutusu" səhnədə", "Şuşa" qəzeti, 20 noyabr 1966-cı il, №63.
5. C.Quliyeva. "Ədibə həsr edilmişdir", "Şuşa" qəzeti, 26 oktyabr 1966-cı il, №57.
6. "Cəlil Məmmədquluzadənin anadan olmasının 100 illiyi qarşısında", "Şuşa" qəzeti, 5 may 1966-cı il, №20.
7. "Yubiley qarşısında", "Şuşa" qəzeti, 24 dekabr 1966-cı il, №18.
8. "Hazırlıq işləri görülür", "Şuşa" qəzeti, 4 mart 1967-ci il, №18.
9. Oqtay Allahverdiyev. "Növbəti məşğələ", "Şuşa" qəzeti, 20 noyabr 1966-cı il, №63.
10. "Səyyar elmi sessiya", "Şuşa" qəzeti, 12 may 1967-ci il, №37.
11. R.Zeynalova. "Cəlil Məmmədquluzadənin anadan olmasının 100 illiyi qarşısında", "Şuşa" qəzeti, 14 iyul 1965-ci il, №43.
12. F.İsmayılova. "Ədəbi-bədii gecə", "Şuşa" qəzeti, 20 dekabr 1966-cı il, №71.
13. Zahir İsgəndərov. "Böyük ədibin yaşayığı yerdə", "Sürət" qəzeti, 17 may 1967-ci il, №20.
14. "Yubileyə hazırlıq". "Lenin yolu" qəzeti, 19 dekabr 1965-ci il, №-144.
15. Kamil Eyvazov. "Yubileyə hazırlıq". "Lenin yolu" qəzeti, 30 sentyabr 1966-cı il, №107.
16. Suğra Hüseynova. "Yubileyə hazırlıq". "Lenin yolu" qəzeti, 27 fevral 1966-cı il, №24.
17. Həsən Qəhrəmanov. "Maraqlı tədbirlər", "Lenin yolu" qəzeti, 7 oktyabr 1966-cı il, №110.
18. Telman Məmmədov. "Yubileyə hazırlaşırlar", "Lenin yolu" qəzeti, 2 oktyabr 1966-cı il, №-108.
19. T.Əlizadə. "Sizi deyib gəlmişəm", "Lenin yolu" qəzeti, 18 noyabr 1966-cı il, №127.
20. Telman Məmmədov. "Yubiley tədbirləri", "Lenin yolu" qəzeti, 4 iyun 1967-ci il, №165.
21. Zahid Eloğlu. "Yubileyə hazırlıq". "Lenin yolu" qəzeti, 1 yanvar 1966-cı il, №1.
22. Vəliş Vəliyev. "Məruzələr, söhbətlər", "Lenin yolu" qəzeti, 14 yanvar 1966-cı il, №5.
23. Yervand Kasparov. "Yubileyə hazırlaşırlar", "Lenin yolu" qəzeti, 9 fevral 1966-cı il, №16.
24. O.Bayramov. "Qısa sətirlər", "Lenin yolu" qəzeti, 9 fevral 1966-cı il, №-16.
25. K.Səfərov. "Yaxşı hazırlıqla", "Lenin yolu" qəzeti, 12 oktyabr 1966-cı il, №-112.
26. Əvəz Nayıbov. "Yubileyə hazırlıq". "Lenin yolu" qəzeti, 2 dekabr 1966-cı il, №-133.
27. Fəyyaz Məmmədov. "Böyük ədibə həsr olunmuşdur", "Lenin yolu" qəzeti, 2 dekabr 1966-cı il, №-134.
28. Akif Ağamirzəyev. "Ədəbi gecə", "Lenin yolu" qəzeti, 4 iyun 1967-cı il, №-65.

**Васиф Гулиев**

**Проведение в Карабахе столетнего юбилея Джалиля Мамедгулузаде**

Столетний юбилей великого азербайджанского писателя Джалиля Мамедгулузаде в 1967 году был отмечен не только в Азербайджане, но и в ряде союзных республик СССР. Комитет по подготовке к юбилею существовал еще с начала 1965 года. Были проведены красочные мероприятия по случаю этого юбилея во всех районах республики, в том числе в Карабахе─Шуше, Агдаме и Агджабеди, где писатель прожил большую часть своей жизни. С марта 1966 года по случаю подготовки к юбилею в Шушинской Педагогической Школе имени М.Азизбекова были проведены ряд мероприятий. Была подготовлена выставка, отражающая жизнь и творчество Дж.Мамедгулузаде, ученики поставили его пьесу «Мертвецы». В Шушинском техникуме Сельского Хозяйство режиссер Али Аждаров поставил пьесу по рассказам писателя. По случаю юбилея в Шуше проведена научная сессия, где выступили известные ученые Назим Ахундов, Кямран Мамедов. Другую научную сессию в шушинском городском доме культуры провели сотрудники Музея Азербайджанской Литературы им.Низами и Института Литературы и Языка. Здесь выступили Гамид Араслы, Оруджали Гасанов, Исмаил Ахундов, Аббас Заманов.

По случаю юбилея были проведены мероприятия и в селе Кяхризли Агджебединского района, где писатель в доме своей жены отдыхал почти каждое лето. Здесь участвовали те, кто лично знали Дж. Мамедгулузаде.

В городе Агдам и ряде сел агдамского района тоже были проведены мероприятия по случаю юбилея писатели.

***Ключевые слова:*** *юбилей, Шуша, «Молла Насреддин», «Мертвецы», Агдам*

**Vasif Quliev**

**Carrying out the centenary of Jalil Mammadguluzade in Karabakh**

The centenary of the great Azerbaijani writer Jalil Mammadguluzade in 1967 was celebrated not only in Azerbaijan, but also in a number of Soviet republics of the USSR. The committee for the preparation of the anniversary existed since the beginning of 1965. Colorful events were held on the occasion of this anniversary in all regions of the republic, including Karabakh─Shusha, Agdam and Agjabedi, where the writer lived most of his life. Since March 1966, on the occasion of preparations for the anniversary, a number of events were held at the Shusha Pedagogical School named after M. Azizbekov. An exhibition reflecting the life and work of J. Mammadguluzade was prepared, the students staged his play "The Dead". In the Shusha Technical School of Agriculture, director Ali Ajdarov staged a play based on the writer's stories. On the occasion of the anniversary, a scientific session was held in Shusha, where famous scientists Nazim Akhundov, Kamran Mamedov spoke. Another scientific session at the Shusha City House of Culture was conducted by the staff of the Museum of Azerbaijan Literature named after Nizami and the Institute of Literature and Language. Here were Hamid Arasli, Orudzhali Hasanov, Ismail Akhundov, Abbas Zamanov.

On the occasion of the anniversary, events were held in the village of Kyahrizli in the Agjebedi region, where the writer rested in his wife's house almost every summer. Here participated those who personally knew J. Mamedguluzade.

In the city of Aghdam and in a number of villages in the Agdam district, writers were also held on the occasion of the anniversary.

***Key words:*** *anniversary, Shusha, "Molla Nasraddin", 'The Dead", Agdam*

Redaksiyaya daxil olma tarixi: 12.07.2019
Çapa qəbul olunma tarixi: 11.08.2019

Filologiya üzrə elmlər doktoru
**Paşa Kərimov** tərəfindən çapa tövsiyə olunmuşdur.